Audit beynəlxalq audit şirkəti olan “Baker Tilly Azerbaijan” MMC tərəfindən aparılıb. Qeyd edək ki, “Baker Tilly Azerbaijan” MMC ilə Azərbaycan Respublikası Təhsil Nazirliyi arasında müqavilə Dünya Bankının texniki tapşırığı əsasında bağlanıb.

Auditorlar Layihənin maliyyə göstəricilərini və xüsusilə də Dünya Bankının Azərbaycan Beynəlxalq Bankında olan xüsusi valyuta hesabındakı vəsaitlərinin hərəkətinin, eləcə də Layihə çərçivəsində imzalanmış müqavilələrin satınalma prosedurlarının auditini həyata keçiriblər. “Baker Tilly Azerbaijan” MMC Təhsil Sektorunun İnkişafı Layihəsinin 31 mart 2009-cu il tarixinə və həmin tarixdə tamamlanan 15 aylıq dövr üzrə Xüsusi Məqsədli Maliyyə Hesabatlarına dair aşağıdakı kimi Auditor rəyi verib:

“Bizim rəyimizcə, Layihənin Xüsusi Məqsədli Maliyyə Hesabatları bütün əhəmiyyətli aspektlər baxımından Layihənin 31 mart 2009-cu il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə vəsaitlərin mənbələrini və istifadəsini Dünya Bankının Təlimatlarına uyğun olaraq düzgün əks etdirir”.